Qəlblərimizin Sultanı

# İMAM HÜSEYN



Dr. Əbdülvəhhab ibn Nasır ət-Tureyri

بسم الله الرحمن الرحيم

## Qəlblərimizin sultanı imam Hüseyn:

Biz ağamız **Hüseyn ibn Əli** (Allah ondan razı olsun) haqqında bilirik ki, o, Allah Rəsulunun (sallallahu əleyhi və səlləm) qız nəvəsi, dünyadakı reyhanı (xoş ətirli gülü) və insanlar arasında ona ən çox bənzəyənidir. Onun mübarək ağzı Allah Rəsulunun (sallallahu əleyhi və səlləm) öpdüyü yer idi.

O və qardaşı **Həsən** cənnət əhlinin gənclərinin ağalarıdır. O, Allahı və Rəsulunu sevən, Allah və Rəsulu tərəfindən də sevilən möminlərin əmiri **Əli ibn Əbu Talibin** oğludur. O Əli ki, onu sevmək imandan, ona nifrət bəsləmək isə nifaqdan sayılırdı.

O, dünya qadınlarının xanımı, Peyğəmbərin ciyərparası, pak **Fatimeyi-Zəhranın** oğludur. O, Allahın hər cür çirkinliyi özlərindən uzaq etdiyi və onları tərtəmiz qıldığı Peyğəmbər ailəsinin (əhli-beytin) ən xeyirlilərindəndir. Peyğəmbərimiz "Qədir-Xum" günü onlar haqda belə demişdir:
**"Əhli-Beytim barəsində sizə Allahı xatırladıram (yəni onlar barədə Allahdan qorxun)".**[1]

## Sevgimizin ölçüsü və iman bağımız:

O, bizim ağamız və Peyğəmbərimizin (nəvəsi olduğu üçün) oğludur. Biz onu sevirik, onu özümüzə doğma bilirik və inanırıq ki, onun – Allah ondan və atasından razı olsun –

[1] Müslim, 2408

sevgisi imanın ən möhkəm bağlarından, Uca Allaha yaxınlaşmağın isə ən uca vəsilələrindən biridir. Bu, babasının (sallallahu əleyhi və səlləm): **"İnsan sevdiyi ilə bərabərdir"**[1] – kəlamının bir nümunəsi və təsdiqidir.

Kimi onu sevərsə, Peyğəmbəri sevmiş, kim də ona nifrət edərsə, Peyğəmbərə nifrət etmiş olar. Onun, atasının və babasının haqqında möminlərin əmiri Ömər ibn Xəttabın ona dediyi bu sözləri deyirik:
**"Məgər bizim başımızda olan bu saçları Allahdan sonra sizlərdən (Peyğəmbər nəslindən) başqasımı bitirdi?!**[2]**"**[3]

## Şəhadət və səbir məqamı:

Biz inanırıq ki, o (imam Hüseyn), məzlumcasına və haqsız yerə qətlə yetirilmişdir. Onu qətlə yetirən, bu qətldə əli olan və ya buna razılıq verən hər bir günahkar bədbəxtdən bəri (uzaq) olduğumuzu bəyan edirik.

İnanırıq ki, onun başına gələnlər Allahın ona olan bir lütfü, şanının ucaldılması və məqamının yüksəldilməsi üçün dünyəvi bir səbəbdir. Bu, babasının (sallallahu əleyhi və səlləm): ''**İnsanlar arasında ən şiddətli bəlaya düçar olanlar**

---

[1] Buxari, 6168 və Müslim, 2640

[2] Buradakı "saç bitirmək" ifadəsi bədii bir təşbehdir; insanın vüqarını, varlığını və mənəvi ucalığını Peyğəmbər nəslinin bərəkətinə borclu olduğunu ifadə edən klassik bir ərəb deyimidir.

[3] İbn Sad "ət-Tabaqat" 6/408, Xatib əl-Bağdadi "Tarix Bağdad" 1/471.

**peyğəmbərlər, sonra isə onlara dərəcə baxımından ən yaxın olanlardır"**[1] – kəlamının gözəl bir nümunəsidir.

Allah, bu sınaq vasitəsilə onu şəhidlik məqamına çatdırmış və İslam dəvətinin ilk illərində müxtəlif müsibətlərlə imtahan olunub səbir edən əhli-beytin öndərlərinə qovuşdurmuşdur. Beləcə, imam Hüseyn də sınağa çəkildi və səbir etdi; Allah da şəhadət şərbətini içirməklə Öz nemətini onun üzərində tamamladı. Çünki Allahın kəramət yurdunda (cənnətdə) elə uca məqamlar vardır ki, onlara ancaq bəla və müsibətlərə səbir edənlər nail ola bilərlər. İmam Hüseyn də məhz həmin seçilmiş şəxsiyyətlərdəndir.

Biz bilirik ki, Hüseynin şəhadətindən bu günə qədər müsəlmanlar bundan daha böyük bir müsibətə düçar olmamışlar! Hər dəfəsində imam Əbu Abdullahın (Hüseynin) müsibətini xatırlayanda atasının şəhadətinin şahidi olmuş pak sənubər – Fatimə binti Hüseynin, atası Hüseyndən, onun isə babasından (sallallahu əleyhi və səlləm) nəql etdiyi bu kəlamı dilə gətiririk:
**"Bir kimsə müsibətə uğrayar və zaman keçsə belə, o kədərini xatırlayıb yenidən "istirca" edərsə, yəni 'innə lilləhi və innə ileyhi raciun' deyərsə, Allah ona həmin müsibətə ilk uğradığı gündəki qədər mükafat (savab) bəxş edər".**[2]
Biz də: '**innə lilləhi və innə ileyhi raciun' (Allaha məxsusuyuq və mütləq Ona tərəf dönəcəyik)** – deyirik və

---

[1] Tirmizi, 2398, İbn Macə, 4028
[2] İbn Macə, 1600

ümid edirik ki, bununla Allah-Təalanın haqqında belə buyurduğu kəslərdən olarıq:
**"Səbir edənlərə müjdə ver! O kəslər ki, başlarına bir müsibət gəldiyi zaman: «Biz Allaha məxsusuyuq və mütləq Ona tərəf dönəcəyik!» – deyirlər. Onlara Rəbbi tərəfindən bağışlanma və rəhmət vardır. Məhz onlar doğru yolda olanlardır".**[1]

## Sevgidə həddi aşmayaq:

Bütün bunlarla yanaşı, ona olan sevgimizdə babasının (sallallahu əleyhi və səlləm) bizə müəyyən etdiyi hüdudları aşmırıq. Çünki o (sallallahu əleyhi və səlləm) belə buyurmuşdur:
**"Xristianlar Məryəm oğlu İsanı (həddindən artıq tərifləyib ilahlaşdıraraq) ucaltdıqları kimi, siz də məni mədh edərkən həddi aşmayın! Mən ancaq bir bəndəyəm, Allah quluyam! Elə isə (mənim haqqımda): «Allahın bəndəsi və Rəsulu» – deyin!"**[2]

Biz ona (imam Hüseynə) yalnız Allaha məxsus olan dua və istiğasə (kömək diləmə) kimi təzim (ucaltma) növləri ilə pərəstiş etmirik. Xristianların Məryəm oğlu İsanı və anasını ilahlıq mərtəbəsinə qaldıraraq şərik qoşduqları kimi, biz də Peyğəmbərimizlə və onun ailəsi ilə Allaha şərik qoşmuruq.

---

[1] Bəqərə surəsi, 155-157
[2] Buxari, 3445

Nə onun, nə də digər pak əhli-beyt mənsublarının haqqında məsumluq (günahsızlıq) və təşri (Allah tərəfindən vəhy yolu ilə hökmlər təyin etmək) kimi – yalnız peyğəmbərlərə məxsus olan – xüsusiyyətləri iddia etmirik. Əksinə, etiqad edirik ki, onlar – Allah onlardan razı olsun – Allah Rəsulunun (sallallahu əleyhi və səlləm) gətirdiklərini ən doğru şəkildə təbliğ edənlər və onun hidayət yoluna ən çox bağlı olan kəslər idi.

Biz bilirik ki, onlar da bir bəşərdir, lakin insanlar arasında məqamı ən üstün, qədri isə ən uca olanlardır. Bununla belə, onlar heç vaxt Allah Rəsuluna (sallallahu əleyhi və səlləm) olan qohumluqlarına arxayın olmamış, əksinə, onun dininə tabe olmaqda və şəriətini yaşamaqda hər kəsdən öndə olmuşlar. Necə ki, İslamın göz bəbəyi imam Zeynalabidin Əli ibn Hüseyn belə demişdir:
**"Ümid edirəm ki, Allah bizlərdən yaxşı iş görənə ikiqat mükafat verər; eyni zamanda qorxuram ki, bizlərdən günah işləyənin üzərinə ikiqat məsuliyyət (günah) qoyar"**.[1]

Eyni zamanda biz, fəryad edib ağlamağı, üzə sillə vurmağı, yaxa cırmağı bizə qadağan edən və bu kimi əməllərin cahiliyyət əməli olduğunu bildirən babasına (sallallahu əleyhi və səlləm) asi olmuruq.[2] Belə ki, onun əmisi Həmzə şəhid edilmiş və nəşi təhqir olunmuşdu. Peyğəmbərimiz ondan sonra heç vaxt əmisi Həmzənin müsibəti qədər böyük

---

[1] Tabarsi, "Məcməul-bəyan" 8/129

[2] Allah rəsulu (sallallahu əleyhi və səlləm) demişdir: ***"Ölü üçün ağı demək cahiliyyət adətlərindəndir"*** ("Mən lə yəhduruhul-fəqih" 4/271-272). ***"Üzünə döyən, yaxasını cıran bizdən deyildir!"*** ("Müstədrəkəl-Vəsail" 1/144)

bir acı yaşamamışdı; buna baxmayaraq, o, əmisinin şəhadət gününü matəm və hüzün gününə çevirmədi.

Peyğəmbərin vəfat etdiyi gün imam Əli də belə bir şey etmədi; Həsən və Hüseyn də atalarının şəhadət günündə bu cür davranmadılar. Biz də Peyğəmbərin bu hidayət yoluna, imam Əlinin və onun iki oğlu Həsənlə Hüseynin davam etdirdiyi bu nümunəyə tabe olaraq, Hüseynin şəhadət gününü fəryad və sinəvurma gününə çevirmirik.
**"Onlar Allahın doğru yola yönəltdiyi kimsələrdir. Sən də onların hidayət yoluna tabe ol!"**[1]

## Aşura günü:

Aşura gününə gəlincə, o, Allahın Musanı (əleyhissalam) və qövmünü xilas etdiyi bir gündür. Peyğəmbərimiz Məhəmməd (sallallahu əleyhi və səlləm) Allaha şükür əlaməti olaraq həmin gün oruc tutmuşdur; biz də bu işdə Peyğəmbərimizə tabe olaraq həmin günü oruc tuturuq. O, eyni zamanda Peyğəmbərimizin nəvəsi Hüseyn ibn Əlinin şəhid edildiyi gündür; biz bu gündə başımıza gələn müsibətə görə səbir edir və mükafatını Allahdan diləyirik.

Beləliklə, biz müsəlmanlar üçün bu gündə iki məqam birləşmişdir: Musa peyğəmbərin xilas edildiyi gün olduğu üçün **şükür məqamı** və Peyğəmbərimizin nəvəsinin şəhadəti ilə sarsıldığımız üçün **səbir məqamı**. Necə ki, Ramazan ayının on yeddinci günü həm 'Furqan' (haqla

---

[1] Ənam surəsi, 90

batilin ayrıldığı) Bədr döyüşü günü, həm də möminlərin əmiri imam Əlinin şəhadət günüdür. Eləcə də Rəbiüləvvəl ayının bazar ertəsi günü həm Peyğəmbərimizin (sallallahu əleyhi və səlləm) doğulduğu, həm də vəfat etdiyi gündür.

Deməli, bu məqam, biz müsəlmanlar üçün həm şükür, həm də səbir məqamıdır. Allahın peyğəmbəri Musanın xilas olması münasibətilə Rəsulullaha (sallallahu əleyhi və səlləm) tabe olaraq şükür orucu tuturuq.[1] Peyğəmbərimizin nəvəsinin şəhadətinə görə isə savabını Allahdan gözləyərək, bu müsibət qarşısında 'istirca' edir və müjdələnmiş səbir sahibləri kimi belə deyirik:
**"Biz Allaha məxsusuyuq və mütləq Ona tərəf dönəcəyik!"**[2]

## Haqqı axtaranlara nəsihət:

Son olaraq, əziz oxucu! Qoy niyyətin haqqı axtarmaq və onun izinə düşmək olsun! Allah səni haqqa müvəffəq etsin! Sən dahi şəxsiyyət Əli ibn Əbu Talibi özünə örnək götür. O, hələ gəncliyinin və yeniyetməliyinin ilk çağlarında olmasına baxmayaraq, cahiliyyət əhlinin tutduğu yolu tərk etdi. Haqq əhlinin zəifliyinə, haqqa dəstək olacaq kəslərin azlığına baxmayaraq, Allahın doğru yoluna və Məhəmmədə (sallallahu əleyhi və səlləm) nazil olan nuruna tabe oldu.

---

[1] İmam Əli (Allah ondan razı olsun) demişdir: *"Məhərrəmin doqquz və onuncu gününü oruc tutun! Çünki bu bir ilin günahlarına kəffarədir"* ("Vəsail əş-şiə" 7/337). İmam Baqir demişdir: *"Aşura orucu bir ilin günahlarını silər"* ("əl-İstibsar" 2/134).

[2] Bəqərə surəsi, 156

Onun gəncliyi, habelə həm Allah Rəsulu (sallallahu əleyhi və səlləm) ilə keçən, həm də ondan sonrakı bütün həyatı haqq üzərində sabit qalmağın və haqqı müdafiə etməyin böyük bir nümunəsi idi.

Bil ki – Allah səni haqqa müvəffəq etsin! – ömür çaşqınlıq və tərəddüd içində hədər edilməyəcək qədər qısadır. Buna görə də hər birimiz var güc ilə haqqı axtarmalı, Allaha sığınaraq Ondan kömək diləməli, Ona dua etməli və ixtilaflı məsələlərdə Öz izni ilə həqiqəti bizə göstərməsi üçün israrla Ona yalvarmalıyıq.

Ondan diləməliyik ki, bizi Öz razılığına aparan yola yönəltsin və bizi Özünün doğru yolundan ayırmasın. O yol ki, Allahın nemət verdiyi peyğəmbərlərin, siddiqlərin (sözü və özü bir olanların), şəhidlərin və saleh bəndələrin yoludur. Onlar nə gözəl yoldaşdırlar!

Hamımız bilməliyik ki, əgər Allah bizə rəhm etməzsə və Öz rəhməti ilə qəlblərimizə hidayət verməzsə, biz həmişə çaşqınlıq və zəlalət (azğınlıq) içində qalarıq.
**"Bu, Allahın hidayətidir. O, bəndələrindən istədiyini onunla doğru yola yönəldər".**[1]

Allahım! Peyğəmbərinə, onun ailəsinə və zürriyyətinə olan sevgimizi vəsilə edərək Səndən diləyirik: Bizi onların getdiyi yola yönəlt, bizi Qiyamət günü onların zümrəsində qərar ver və bizi onlara gözəl bir şəkildə tabe olanlardan eylə! Amin!

---

[1] Ənam surəsi, 88

**Müəllifin digər kitabları ilə tanış olmaq üçün QR kodu oxudun**

